# PARMAKET® *Roze*

**PARKET VƏ TAXTA YAPIŞQANI-PVA**
*roze rəngdə*




**Məhsul haqqında**
Polivinil asetat əsaslı, geniş təyinatlı, səthi aktiv maddələrlə zəngin, yüksək yapışma gücünə malik çəhrayı rəngli yapışqandır.
AZS 082-2003 standartına uyğundur.

**İstifadə sahələri**
Bu yapışqandan:
• ağac, kağız, karton, dəri, parça, linoleum və s. məmulatların yapışdırılmasında;
• üzlük plitələrin, həmçinin müxtəlif növ gips və sement əsaslı qarışıqların yapışma gücünün artırılmasında istifadə olunur.

**Üstünlükləri**
• istifadəyə hazırdır və asanlıqla çəkilir;
• yüksək yapışma qabiliyyətinə malikdir;
• müxtəlif növ sement və gips əsaslı qarışıqların yapışma gücünü artırır;
• $100^0$C-ə qədər dözümlüdür.

**İstifadə qaydaları**
***Səthin hazırlanması.*** İstifadə olunan səth təmiz və quru olmalıdır. Səth yapışmağa mane olan qalıqlardan təmizlənməlidir.

***Tətbiqi.*** İstifadədən əvvəl qarışdırın. Yapışdırılacaq səthə nazik qat şəklində çəkin. 1-2 dəqiqədən sonra yapışdırılacaq səthləri birləşdirin və preslə sıxıb bir gün saxlayın. Yüksək yapışqanlılıq əldə etmək üçün $+5^0$C-dən yuxarı temperaturda istifadə olunması məsləhət görülür. Tam yapışqanlıq qabiliyyətinə 24 saatdan sonra nail olunur.

***Tövsiyələr.*** PARMAKET Roze istifadə olunarkən mühitin temperaturu $+5^0$C-dən aşağı və $+30^0$C-dən yuxarıdırsa, lazımi temperatur təmin olunmalıdır. İsti ($+30^0$C-dən yuxarı) havalarda istifadə olunmamalıdır. İstifadə müddəti keçmiş PARMAKET Roze yapışqanı atılmalıdır.

**Texniki göstəricilər**

| | |
|---|---|
| Rəngi | çəhrayı |
| İstifadə temperaturu | $+5^0$ C – $+30^0$ C |
| Tutma müddəti | 1-2 dəqiqədən çox |
| Gərilmə zamanı möhkəmlik | 4 MPa-dan yuxarı |
| Hidrogen ionlarının qatılığı (hidrogen göstəricisi - ph) | 4,5 -6,0 |
| Qablaşdırma | 850 qr və 3, 5, 8, 10, 18, 20, 25, və 200 kq-lıq plastik vedrələrdə |

**Sərfiyyat**
Ağac, kağız, karton, dəri, parça, linoleum və digər materialların xüsusiyyətlərindən asılı olaraq sərfiyyat 0,5-1,2 kq/$m^2$-dir.

**Saxlama müddəti və qaydası**
Açılmamış qablarda, quru şəraitdə 12 ay saxlanıla bilər.

**Xəbərdarlıqlar**
• PARMAKET Roze yapışqanının səthi aktiv maddələrlə zəngin olduğunu nəzərə alaraq dəriyə və ya gözə düşdükdə dərhal su ilə yuyun;
• istifadə qaydalarında qeyd edilməyən heç bir əlavə maddə qatmayın;
• quru anbarlarda saxlayın;
• yuxarıdakı göstəricilər $+23^0$C$\pm2^0$C temperatur və 50%±5% rütubətli şəraitdə aparılan laboratoriya sınaqları nəticəsində əldə olunmuşdur. Şəraitdən asılı olaraq bu göstəricilər dəyişə bilər.

**Zəmanət və texniki dəstək**
• texniki göstəricilərdə qeyd edilmiş məlumatlar elmi və təcrübi biliklərə əsaslanır;
• "Mətanət A" şirkəti məhsulun müvafiq texniki şərt və dövlət standartlarına uyğunluğuna zəmanət verir;
• şirkətin mütəxəssislərinin rəhbərliyi altında görülən işlər istisna olmaqla, digər istifadəçilər tərəfindən təlimatdan kənar istifadə zamanı yarana biləcək problemlərə görə "Mətanət A" şirkəti məsuliyyət daşımır;
• şirkət elmi-texniki inkişafla bağlı məhsulda dəyişiklik etmə hüququnu özündə saxlayır;
• texniki dəstək və ya daha geniş məlumat almaq üçün "Mətanət A" şirkətinə müraciət edin!